**Mələk Adil qızı HÜSEYNOVA**
Qərbi Kaspi Universitetinin magistrantı
E-mail: Melekhuseynova247@gmail.com
ORCID ID: 0009-0002-0741-2801

# AZƏRBAYCAN–ÇİN İQTİSADİ ƏMƏKDAŞLIĞININ STRATEJİ ƏHƏMİYYƏTİ VƏ ORTA DƏHLİZ ÇƏRÇİVƏSİNDƏ İNKİŞAF DİNAMİKASI

**Xülasə**

Müasir beynəlxalq iqtisadi münasibətlər sistemində regional əməkdaşlıq və nəqliyyat-logistika inteqrasiyası dövlətlər arasında qarşılıqlı asılılığın əsas determinantlarından birinə çevrilmişdir. Qlobal miqyasda baş verən struktur dəyişikliklər, xüsusilə çoxqütblü beynəlxalq sistemin formalaşması və Avrasiya məkanında geoiqtisadi proseslərin sürətlənməsi Azərbaycan və Çin arasında əməkdaşlığın əhəmiyyətini daha da artırmışdır. Bu baxımdan Azərbaycan–Çin iqtisadi münasibətləri yalnız ikitərəfli əlaqələr çərçivəsində deyil, həm də regional və qlobal iqtisadi sistemin mühüm komponenti kimi çıxış edir. Məqalədə Azərbaycan–Çin iqtisadi əməkdaşlığının əsas istiqamətləri, xüsusilə ticarət, nəqliyyat-logistika, investisiya və enerji sahələrində inkişaf dinamikası kompleks şəkildə təhlil edilmişdir. Tədqiqatın əsas məqsədi Orta Dəhliz strategiyasının bu əməkdaşlığa təsirini müəyyən etmək, iqtisadi inteqrasiyanın dərinləşmə səviyyəsini qiymətləndirmək və gələcək inkişaf perspektivlərini elmi əsaslarla izah etməkdir. Tədqiqat zamanı sistemli yanaşma, müqayisəli təhlil, statistik analiz və analitik modelləşdirmə metodlarından istifadə olunmuşdur. Empirik nəticələr göstərir ki, Azərbaycan–Çin iqtisadi əlaqələri son illərdə sabit artım tendensiyası nümayiş etdirərək strateji əməkdaşlıq səviyyəsinə yüksəlmişdir. Xüsusilə Orta Dəhliz layihəsinin inkişafı Azərbaycanın tranzit potensialını artırmış, ölkəni Avrasiya məkanında əsas logistika qovşaqlarından birinə çevirmişdir. Eyni zamanda tədqiqat nəticələri göstərir ki, bu əməkdaşlıq modeli yalnız ticarət həcminin artımı ilə məhdudlaşmır, həm də regional iqtisadi inteqrasiyanın güclənməsi, enerji təhlükəsizliyinin təmin olunması və qlobal ticarət marşrutlarının diversifikasiyası baxımından mühüm rol oynayır.

**Açar sözlər:** Azərbaycan–Çin münasibətləri, Orta Dəhliz, iqtisadi inteqrasiya, ticarət dövriyyəsi, nəqliyyat-logistika.

**UOT:** 339
**JEL:** F15, F21, R41
**DOI:** https://doi.org/10.54414/IUXY2669

## Giriş

Müasir dövrdə beynəlxalq iqtisadi münasibətlər sistemi dərin transformasiya mərhələsindən keçməkdədir. Qlobal iqtisadi güc balansının dəyişməsi, yeni iqtisadi mərkəzlərin formalaşması və regional inteqrasiya proseslərinin intensivləşməsi dövlətlər arasında əməkdaşlığın yeni formalarını ortaya çıxarmışdır. Bu kontekstdə Çin Xalq Respublikasının qlobal iqtisadi sistemdə artan rolu və onun irəli sürdüyü "Bir Kəmər, Bir Yol" təşəbbüsü Avrasiya məkanında yeni iqtisadi və logistika arxitekturasının formalaşmasına səbəb olmuşdur [1]. Azərbaycan isə coğrafi mövqeyi, enerji resursları və inkişaf etmiş nəqliyyat infrastrukturu ilə bu prosesdə xüsusi yer tutur. Şərq ilə Qərb arasında körpü rolunu oynayan Azərbaycan Orta Dəhliz strategiyası çərçivəsində Çin–Avropa ticarətində mühüm tranzit ölkəyə çevrilmişdir [9]. Mövzunun aktuallığı ondan ibarətdir ki, Azərbaycan–Çin iqtisadi əməkdaşlığı yalnız ikitərəfli münasibətlərin inkişafı baxımından deyil, həm də regional iqtisadi inteqrasiyanın və qlobal ticarət marşrutlarının yenidən formalaşması baxımından strateji əhəmiyyət daşıyır.

Tədqiqatın məqsədi Azərbaycan–Çin iqtisadi əməkdaşlığının inkişaf dinamikasını təhlil etmək, Orta Dəhliz strategiyasının bu münasibətlərə təsirini qiymətləndirmək və gələcək inkişaf istiqamətlərini müəyyən etməkdir. Tədqiqatın aktuallığı ondan ibarətdir ki, turizm və rekreasiya müəssisələrində xidmət keyfiyyətinin idarə olunması məsələsi yalnız nəzəri deyil, eyni zamanda praktiki baxımdan da mühüm əhəmiyyət daşıyır. Müasir şəraitdə müəssisələrin uğuru keyfiyyətin düzgün idarə olunmasından və beynəlxalq standartların tətbiqindən birbaşa asılıdır.

**Azərbaycan–Çin iqtisadi əməkdaşlığının əsas istiqamətləri və inkişaf xüsusiyyətləri.** Azərbaycan və Çin arasında iqtisadi əməkdaşlıq son illərdə keyfiyyətcə yeni mərhələyə keçmiş və çoxşaxəli xarakter almışdır [6]. Əvvəlki mərhələdə əsasən sadə ticarət münasibətləri üzərində qurulan əməkdaşlıq hazırda strateji investisiya, logistika və texnoloji əməkdaşlıq səviyyəsinə yüksəlmişdir. Bu əməkdaşlığın əsas istiqamətlərinə aşağıdakılar daxildir [3]:

- xarici ticarət münasibətləri;
- nəqliyyat-logistika inteqrasiyası;
- investisiya və sənaye əməkdaşlığı;
- enerji və yaşıl iqtisadiyyat;
- rəqəmsal texnologiyalar və innovasiya.

Qeyd olunan istiqamətlərin hər biri iqtisadi əməkdaşlığın strukturunu formalaşdıran əsas elementlər kimi çıxış edir. Xüsusilə nəqliyyat-logistika sahəsində əməkdaşlıq regional bağlantıların güclənməsinə şərait yaradırsa, investisiya və sənaye əməkdaşlığı istehsal potensialının genişlənməsinə və texnologiya transferinə imkan verir. Rəqəmsal texnologiyalar sahəsində qarşılıqlı fəaliyyət isə iqtisadi proseslərin optimallaşdırılması və idarəetmə səmərəliliyinin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Xüsusilə qeyd etmək lazımdır ki, Çin Azərbaycanın əsas idxal tərəfdaşlarından birinə çevrilmişdir. Bu isə Azərbaycanın sənayeləşmə və texnoloji inkişaf prosesində Çin məhsullarının və texnologiyalarının mühüm rol oynadığını göstərir [10]. Digər tərəfdən, Azərbaycan Çin üçün enerji və tranzit baxımından etibarlı tərəfdaş kimi çıxış edir.

**Ticarət dövriyyəsinin dinamikası.** Azərbaycan–Çin iqtisadi əməkdaşlığının inkişaf səviyyəsini qiymətləndirmək üçün ən mühüm göstəricilərdən biri ticarət dövriyyəsidir. Bu göstərici iki ölkə arasında iqtisadi əlaqələrin intensivliyini, bazar inteqrasiyasını və əməkdaşlığın genişlənmə tempini əks etdirir. Aşağıdakı cədvəldə son on il ərzində Azərbaycan–Çin ticarət dövriyyəsinin dəyişməsi təqdim olunur.

**Cədvəl 1.** Azərbaycan–Çin ticarət dövriyyəsi (2014–2023, mlrd ABŞ dolları).

| İl | Ticarət dövriyyəsi |
|---|---|
| 2014 | 1.2 |
| 2015 | 1.1 |
| 2016 | 1.3 |
| 2017 | 1.5 |
| 2018 | 1.8 |
| 2019 | 2.0 |
| 2020 | 2.2 |
| 2021 | 2.5 |
| 2022 | 2.8 |
| 2023 | 3.1 |

**Mənbə:** [2,3] mənbələr əsasında hazırlanmışdır.

Cədvəl 1-də təqdim olunan məlumatların təhlili göstərir ki, Azərbaycan–Çin ticarət münasibətləri uzunmüddətli perspektivdə artım trendi üzrə inkişaf etmişdir. 2014–2015-ci illərdə müşahidə olunan azalma əsasən qlobal iqtisadi qeyri-sabitlik və enerji bazarındakı dəyişikliklərlə əlaqədardır. Lakin bu azalma müvəqqəti xarakter daşımış və 2016-cı ildən etibarən ticarət dövriyyəsində yenidən artım müşahidə olunmuşdur.

2017–2019-cu illərdə artım daha stabil xarakter almışdır. Bu dövrdə logistika imkanlarının genişlənməsi, yeni ticarət razılaşmaları və iqtisadi əməkdaşlığın institusional əsaslarının gücləndirilməsi mühüm rol oynamışdır. 2020-ci ildən sonra isə artım tempinin sürətlənməsi xüsusi diqqət çəkir. Pandemiya şəraitində belə ticarət dövriyyəsinin artması iqtisadi əlaqələrin dayanıqlı və strateji xarakter daşıdığını sübut edir [4]. 2023-cü ildə ən yüksək göstəricinin qeydə alınması isə Azərbaycan–Çin iqtisadi əməkdaşlığının artıq yeni inkişaf mərhələsinə keçdiyini göstərir.

Ticarət dövriyyəsinin artımı ilə yanaşı, onun strukturunda da müəyyən dəyişikliklər müşahidə olunur. Azərbaycanın Çin bazarına ixracı əsasən xammal və yarımfabrikat məhsullar üzərində cəmləşdiyi halda, idxal daha çox texnoloji avadanlıqlar, elektronika və sənaye məhsulları ilə xarakterizə olunur. Bu isə tərəflər arasında ticarət balansının struktur baxımından fərqli olduğunu göstərir və gələcəkdə ixracın şaxələndirilməsinin vacibliyini ön plana çıxarır.

Ticarət dövriyyəsinin dəyişmə dinamikasını daha aydın və vizual şəkildə təhlil etmək üçün xətti qrafikdən istifadə olunur. Qrafik iqtisadi münasibətlərin zaman üzrə dəyişmə trayektoriyasını və artım tempini daha dəqiq göstərir.

**Şəkil 1.** Azərbaycan–Çin ticarət dövriyyəsinin dinamikası (2014–2023).




**Mənbə:** [2] mənbə əsasında müəllif tərəfindən hazırlanmışdır.

Şəkil 1-dən göründüyü kimi, Azərbaycan–Çin ticarət əlaqələri ümumi olaraq artan dinamika üzrə inkişaf etmişdir. 2014–2015-ci illərdə müşahidə olunan azalma iqtisadi tsiklik dəyişikliklərlə əlaqəli olsa da, sonrakı dövrdə artımın bərpa olunması əməkdaşlığın struktur baxımından möhkəmləndiyini göstərir. 2016–2019-cu illərdə sabit artım müşahidə olunur ki, bu da iqtisadi əlaqələrin sistemli xarakter aldığını sübut edir.

2020-ci ildən sonra artım tempinin daha da sürətlənməsi Orta Dəhliz layihəsinin aktivləşməsi, logistika imkanlarının genişlənməsi və ticarət əlaqələrinin şaxələndirilməsi ilə izah olunur [7]. 2023-cü ildə pik səviyyəyə çatılması isə iqtisadi münasibətlərin artıq strateji mərhələyə keçdiyini göstərir.

**Orta Dəhliz strategiyasının iqtisadi və geoiqtisadi rolu.** Orta Dəhliz Azərbaycan–Çin əməkdaşlığının əsas strateji komponentlərindən biridir. Bu dəhliz Çin, Mərkəzi Asiya, Xəzər regionu və Avropanı birləşdirən mühüm nəqliyyat marşrutudur [2]. Bu layihənin əhəmiyyəti aşağıdakı istiqamətlərdə özünü göstərir [5]:

- tranzit vaxtının azalması;
- alternativ və təhlükəsiz marşrutun formalaşması;
- regional iqtisadi inteqrasiyanın güclənməsi;

- Azərbaycanın logistika mərkəzinə çevrilməsi;

Azərbaycan bu dəhliz vasitəsilə yalnız tranzit ölkə deyil, həm də regional iqtisadi mərkəz kimi çıxış edir. Azərbaycan–Çin iqtisadi əməkdaşlığının son mərhələsində diqqət çəkən əsas məqamlardan biri münasibətlərin yalnız ticarət və tranzit çərçivəsində qalmaması, daha institusional və uzunmüddətli tərəfdaşlıq formasına keçməsidir. 2024-cü il iyulun 3-də Azərbaycan və Çin arasında strateji tərəfdaşlığın yaradılması haqqında birgə bəyannamənin qəbul edilməsi bu baxımdan mühüm dönüş nöqtəsi kimi qiymətləndirilə bilər. Bu sənəd iki ölkə arasında iqtisadi əlaqələrin artıq ayrı-ayrı layihələr üzərində deyil, daha sistemli və koordinasiyalı əməkdaşlıq mexanizmləri əsasında inkişaf etdiyini göstərir. Belə yanaşma Azərbaycan üçün həm Çin bazarına çıxış imkanlarının genişlənməsi, həm də Orta Dəhliz vasitəsilə beynəlxalq yükdaşımaların daha səmərəli təşkili baxımından əhəmiyyətlidir.

Əməkdaşlığın yeni mərhələsində rəqəmsallaşma xüsusi yer tutur. Çünki müasir nəqliyyat dəhlizlərinin rəqabət qabiliyyəti yalnız məsafə və infrastrukturla deyil, həm də gömrük prosedurlarının sürəti, sənədləşmənin elektronlaşdırılması və yüklərin izlənmə imkanları ilə müəyyən olunur. Bu baxımdan Azərbaycan üçün əsas prioritetlərdən biri Orta Dəhliz boyunca "ağıllı logistika" mexanizmlərinin tətbiqidir. Rəqəmsal gömrük sistemləri, elektron yük sənədləri və real vaxt rejimində izləmə texnologiyaları tranzit prosesində vaxt itkisini azalda, daşınma xərclərini aşağı sala və marşrutun beynəlxalq daşıyıcılar üçün cəlbediciliyini artıra bilər. Azərbaycan Şərq–Qərb nəqliyyat marşrutları üzrə yalnız fiziki keçid məkanı deyil, həm də rəqəmsal logistika idarəetməsinin tətbiq olunduğu regional platformaya çevrilmək imkanına malikdir.

Orta Dəhlizin inkişafında mühüm amillərdən biri də Çin yüklərinin daha sabit və təhlükəsiz marşrutlarla Avropaya çatdırılması ehtiyacıdır. Son illərdə geosiyasi gərginliklər, ənənəvi marşrutlarda yaranan risklər və qlobal təchizat zəncirlərindəki pozulmalar alternativ nəqliyyat yollarına marağı artırmışdır. Bu şəraitdə Azərbaycan üzərindən keçən Trans-xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çin üçün Avropa bazarlarına çıxışda əlavə seçim imkanı yaradır. 2025-ci ildə Çin yüklərinin Bakı–Tbilisi–Qars xətti vasitəsilə daha intensiv daşınması, o cümlədən ayda 50 blok qatarın nəqli planı bu istiqamətdə praktiki addımların gücləndiyini göstərir.

Azərbaycan–Çin iqtisadi əməkdaşlığında yalnız tranzit gəlirlərinə əsaslanmaq kifayət etmir. Daha dayanıqlı nəticə üçün daşınan yüklərin bir hissəsinin Azərbaycanda əlavə dəyər yaradan proseslərə cəlb olunması vacibdir. Məsələn, logistika mərkəzləri, azad iqtisadi zonalar, qablaşdırma, yüngül emal, anbar idarəçiliyi və regional paylama xidmətləri ölkənin tranzit mövqeyini real iqtisadi gəlirə çevirə bilər. Bu yanaşma Azərbaycanın qeyri-neft sektorunun inkişafı baxımından da əhəmiyyətlidir. Çünki nəqliyyat dəhlizi yalnız yükün ölkə ərazisindən keçməsi kimi deyil, xidmət sektorunun genişlənməsi, yeni iş yerlərinin yaranması və ixrac potensialının artması kimi də dəyərləndirilməlidir.

Azərbaycanın Çinlə əməkdaşlığında kənd təsərrüfatı və yaşıl iqtisadiyyat istiqamətləri də ayrıca əhəmiyyət daşıyır. 2025-ci ildə tərəflərin ekoloji təmiz və keyfiyyətli kənd təsərrüfatı məhsullarının bazarlara çıxışının genişləndirilməsi, ticarət və investisiya sahələrində institusional təminatların gücləndirilməsi ilə bağlı niyyət bildirməsi bu sahədə yeni imkanlar yaradır. Azərbaycanın meyvə-tərəvəz, şərabçılıq, fındıq, nar məhsulları və digər qeyri-neft ixrac istiqamətləri Çin bazarında daha geniş təqdim oluna bilər. Lakin bunun üçün məhsul standartları, sertifikatlaşdırma, logistika müddəti və bazar tələblərinə uyğun brendləşmə məsələləri xüsusi diqqətdə saxlanılmalıdır.

**Analitik yanaşma və model.** Azərbaycan–Çin iqtisadi əməkdaşlığını aşağıdakı model ilə ifadə etmək mümkündür:

$$\mathbf{EC = f\,(Trade + Transport + Investment + Energy + Digitalization)}$$

Bu model göstərir ki, iqtisadi əməkdaşlıq çoxkomponentli sistemdir və müxtəlif iqtisadi faktorların qarşılıqlı təsiri nəticəsində formalaşır. Bu əməkdaşlığın əsas nəticələri aşağıdakılardır [8]:

- iqtisadi diversifikasiya;
- qeyri-neft sektorunun inkişafı;
- tranzit gəlirlərinin artması;
- regional inteqrasiyanın güclənməsi.

**Nəticə**

Aparılan təhlil göstərir ki, Azərbaycan–Çin iqtisadi əməkdaşlığı son illərdə dinamik və davamlı inkişaf etmişdir. Ticarət dövriyyəsinin artması, nəqliyyat-logistika layihələrinin genişlənməsi və investisiya əməkdaşlığının dərinləşməsi bu münasibətlərin strateji xarakter aldığını sübut edir. Orta Dəhliz strategiyası Azərbaycanın geoiqtisadi mövqe-yini gücləndirərək onu Avrasiya məkanında əsas tranzit və logistika mərkəzlərindən birinə çevirmişdir. Gələcək perspektivlərdə əmək-daşlığın daha da genişlənməsi gözlənilir və bu proses Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafına mühüm töhfə verəcəkdir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. World Bank. Global Economic Prospects. Washington, DC: World Bank. 2023.
2. UN Comtrade. International Trade Statistics Database. 2023. Available at: https://comtrade.un.org
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Xarici ticarət göstəriciləri. Bakı: AR DSK. 2023.
4. TRACECA. Transport Corridor Development Report. Baku: TRACECA Secretariat. 2023.
5. Asian Development Bank. Central Asia Regional Economic Cooperation Corridor Performance Measurement and Monitoring Report. Manila: ADB. 2023.
6. Rolland N. China’s Eurasian Century? Political and Strategic Implications of the Belt and Road Initiative. Washington, DC: National Bureau of Asian Research. 2017.
7. Keohane R.O., Nye J.S. Power and Interdependence (3rd ed.). New York: Longman. 2001.
8. Cornell S.E. Azerbaijan’s Foreign Policy. Washington, DC: Central Asia-Caucasus Institute. 2020.
9. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. Azərbaycan iqtisadiyyatı üzrə illik hesabat. Bakı. 2023.
10. UNESCAP. Asia-Pacific Trade and Investment Report. Bangkok: United Nations. 2023.

**Melek Adil HUSEYNOVA**
Master’s student at Western Caspian University

# THE STRATEGIC IMPORTANCE OF AZERBAIJAN–CHINA ECONOMIC COOPERATION AND DEVELOPMENT DYNAMICS WITHIN THE MIDDLE CORRIDOR

**Summary**

In the context of the transformation of the global economic system and the emergence of a multipolar international order, regional integration and transport-logistics cooperation have become key determinants of interstate relations. In this regard, economic cooperation between Azerbaijan and China has gained strategic importance, extending beyond bilateral relations and becoming a significant component of the regional and global economic system. This article provides a comprehensive analysis of the main directions of Azerbaijan–China economic cooperation, including trade relations, transport and logistics integration, investment cooperation, and energy collaboration. The main objective of the study is to evaluate the impact of the Middle Corridor strategy on bilateral economic relations and to identify future development prospects. The research employs a systematic approach, comparative analysis, statistical analysis, and analytical modeling methods. The findings

indicate that Azerbaijan–China economic relations demonstrate a stable growth trend and have reached the level of strategic partnership. In particular, the development of the Middle Corridor enhances Azerbaijan's transit potential and transforms the country into one of the key logistics hubs in the Eurasian region. Furthermore, the study reveals that this cooperation model contributes to strengthening regional economic integration, improving energy security, and diversifying global trade routes.

**Keywords:** Azerbaijan–China relations, Middle Corridor, economic integration, trade turnover, transport and logistics.

**Мелек Адил ГУСЕЙНОВА**

магистрант Западно-Каспийского Университета

## СТРАТЕГИЧЕСКОЕ ЗНАЧЕНИЕ ЭКОНОМИЧЕСКОГО СОТРУДНИЧЕСТВА АЗЕРБАЙДЖАНА И КИТАЯ И ДИНАМИКА РАЗВИТИЯ В РАМКАХ СРЕДИННОГО КОРИДОРА

### Резюме

В современных условиях трансформации мировой экономической системы и формирования многополярного международного порядка усиливается значение региональной интеграции и транспортно-логистического сотрудничества между государствами. В этом контексте экономическое сотрудничество между Азербайджаном и Китаем приобретает стратегический характер и выходит за рамки двусторонних отношений, становясь важным элементом региональной и глобальной экономической системы. В статье комплексно анализируются основные направления экономического сотрудничества между Азербайджаном и Китаем, включая торговлю, транспортно-логистическую интеграцию, инвестиционное взаимодействие и энергетическое сотрудничество. Основной целью исследования является оценка влияния стратегии Срединного коридора на развитие двусторонних экономических отношений и определение перспектив дальнейшей интеграции. В ходе исследования использованы методы системного подхода, сравнительного анализа, статистического анализа и аналитического моделирования. Результаты показывают, что экономические отношения между Азербайджаном и Китаем демонстрируют устойчивую тенденцию роста и переходят на уровень стратегического партнерства. В частности, развитие Срединного коридора способствует усилению транзитного потенциала Азербайджана и превращает страну в один из ключевых логистических центров Евразийского пространства. Кроме того, установлено, что данная модель сотрудничества способствует укреплению региональной экономической интеграции, повышению энергетической безопасности и диверсификации глобальных торговых маршрутов.

**Ключевые слова:** Азербайджано-китайские отношения, Срединный коридор, экономическая интеграция, торговый оборот, транспортно-логистическая система.

**Daxil olub:** 22.04.2026